

# Tillaniso Nuryog'di

# Qan

Öz hədsizliyimi sevdim.
Hayalımdaşeirlər yazdım və unutdum hayalımda.
Öz hədsizliyimə dözə bilmədim özüm -
Qalamadixləhzəyi tutub.
Qan qusdum.

Günlərin meyiti üstümə yıxılıb düşdü,
Altında qaldım.
Amma ölmədim,
İtib getmədim.
Səsim qaldı tək... Boğazımda
Boğazımdan qan axdı nəriltiylə.
Qan geçdim.

Dünyanın şahzadəsi, şahları
Qan tuttu qablarında
Qan içdim
Və qabları öz başlarına vurub sındırdım
Mən qan qusdum və qan gəçdim.

Qanda aləv gördüm
Cadu gördüm qanda
Artıq hər şeyin cazibəsi yoxa çıxıb
Rəngi solmuşdu
Qanda cilvə gördüm,
Qanda rəng gördüm.
Qan içdim və qan geçdim.

Azadlığı sevərdim deyə aldatdım hamını
Mən daim azadsızdım.
Azdalığa qeyrət edeede,
Qeyrətden tələ qurdum özümə.
Özüm qurduğum tələdən ağlımı itirdim özüm.
Azadsızdım
Azadlıqdanda hətta, özümde yox və heç vaxt da
sahib olamayacaq hər şeydən nifrət etdiyim kimi nifrət etdim.
Azadsızdım, amma azadlığı sevərdim deyə aldatdım hamını.

Bədənimdə qanım soyudu.
Günlər üstümə yixılır
Azadsız öldüm, yaşadım veyə yaşamadım fərqsiz oldu.
Damarımda soyudu qanım.

Ürəyimi qoya bilmədim heç yerə.
Gönlümü bağışlaya bilmədim.
Aldatdım hamını.
Sevməzdim azadlığı heç vaxt,
Azadlığı sevməzdim,
Ölümü sevməzdim,
Varlığı sevməzdim,
Namusu sevməzdim
Sevgilimi sevməzdim,
Sevgini sevməzdim,
Hamını aldatdım.
Biganə qərib idim və susamışdım biganəliyi
Sevgilimi öperkən,
Büsə üçün başqa dodaq arardım,
Sevgilimi sevməzdim.
Var olanı yox olan bir biganəlik idim.
Ac idim biganəliyə
Ziddiyyətlər içimdə çoxaldı.
Min başlı əjdaha kimi ürəyimi yedi ziddiyyətlər.
Sevirəmsə - atıp getdim.
Sevirəm dedim sevməsəmdə
Ölüm dilədim en yaxınlarıma.
Azadlığı sevməzdim,
Mehribanlığı sevməzdim.
Ziddiyyətlər qulu idim.
Qulu idim öz yadlığımın.
Çırpına - çırpına qan içdim
Həsrət gecələrində qan içdim, saçlarımı yayıb.
Dəlilik qulu idim.
Azadlığı sevməzdim
Qan qusdum və qan gəçdim.

Öz hədsizliyimə dözə bilmədim özüm.
Nə yazdım
Nə dedim, unutdum.
Necə yaşadım - unutdum.
Aqlımdan düşdü hər şey.
Dünyanı yixitacaq söz axtardım.
Son sözdən bezdim,
Dünyadan bezdim.
Bezdim axtarışlardan
Və unutdum.
Dünyanı sevməzdim.
Sevməzdim mən qanı
Sadəcə caduya aşiq idim.
Qanda ölüm cadusu,
Qanda yanğın,
Qanda alevcadusı.
Harada cadu görsəm,
Özümü yaxdım cilvəsində.
İblisdə cadu var.
Bədbəxtlikdə cadu.
İşpftgdşlfırağında cadu.
Azadlıq istəyirsənsə, azadsızlıqda cadu.
Nə istəsən, istəməzlikdə cadu.
Caduda özümü yaxdım
Cazib görməmişəm dünyada bundan bir başka.
Rəng görmədim,
Dayaq,
Dəstək görmədim.
Yeri gəlmişkən, mən anadan olanda
Artıq çökmüşdü çoxdan
Dünyanın sütunları.
Azadlığı sevməzdim
Ölümü sevməzdim
Yaşamağı sevməzdim
Qan qusdum və qan gəçdim
Sevgilimi sevməzdim
Qan qusdum və qan gəçdim

Qusan qanımdan
Dələlər doğulurdu
Balaca canlılar
Dünyanın dörd bir tərəfinə apardı
Onlar
Qan
Yadlık
Və ziddiyyətin cadulu qoxuların.
Cazibə axtaran hər dəliyə məstlik götürdü dələlər qani iyindən.

Özümü sevməzdim.
Heç kimi
Heç nəyi sevməzdim.
Qan qusdum və qan olaraq köçdüm...

**Tərcümə etdi: Şöhrət Barlas**

Türküstan.- 2022.- 1-7 fevral.-S.14.